# Polşa Respublikasının Qnezno şəhərinin nümayəndə heyəti rayonumuzda səfərdə olmuşdur

Avqustun 28-də Polşa Respublikasının Qnezno şəhəri merinin müavini Yaroslav Qrobelnının başçılıq etdiyi nümayəndə heyətini Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev qəbul etmişdir. Başçı qonaqları salamlamış Qəbələnin tarixi bu günü haqqında qonaqlara məlumat vermişdir. Bildirmişdir ki, Qəbələ 800 il bu ərazidə mövcud olmuş Qafqaz Albaniyasının paytaxtı olmuşdur. Mühüm ticarət, kommunikasiya mərkəzi kimi sonralar da uzun müddət əhəmiyyətini qoruyub saxlamışdır.

Bu gün Azərbaycanın digər bölgələri kimi Qəbələ də sürətlə inkişaf edir. Qəbələnin coğrafi mövqeyi, gözəl təbiəti buranı dünyada tanınan turizm məkanına çevirmək imkanı verir.



Ulu öndər Heydər Əliyevin ideyalarını uğurla həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı sayəsində Qəbələnin dünya miqyaslı turizm məkanına çevrilməsi üçün çox iş görülüb. İndi Qəbələ mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir. Qəbələnin sorağı dünyanın hər yerində eşidilir. Bununla belə Qəbələdə kənd təsərrüfatını, sənayeni inkişaf etdirmək üçün mühüm tədbirlər həyata keçirilib və bu tədbirlər daha da genişləndirilir.

Qəbələdə gözəl investisiya imkanları var.

Qəbələyə dəvətə və səmimi qəbula görə polşalı qonaq Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevə təşəkkürünü bildirib. Qəbələ haqqında çox eşitdiyini və bu gün Qəbələnin eşitdiklərindən daha gözəl və inkişaf etmiş olduğunu, mürəbbə festivalında iştirakından xüsusi zövq aldığını, bu cür tədbirlərin xalqların birbirinə yaxınlaşmasında xüsusi rolu olduğunu qeyd etmişdir.

Görüşdən sonra qonaqlar RİH-in inzibati binası ilə tanış olub, rayonun bir sıra görməli yerlərinə, turizm obyektlərinə, istehsal müəssisələrinə baş çəkiblər.

**«Qəbələ»**

**Foto İlkin Vəlizadənindir.**

# Azərbaycan Respublikası Gənclər və İdman naziri Azad Rəhimov Qəbələdə vətəndaşlarla görüşüb

Avqustun 23-də gənclər və idman naziri Azad Rəhimov Qəbələ rayonunda «Qafqaz» Sport oteldə Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki, İsmayıllı şəhər və rayon sakinlərini qəbul edib.

Ümumilikdə 20-dən artıq vətəndaşın iştirak etdiyi qəbulda müxtəlif sahələri əhatə edən müraciətlər sırasında idman və gənclərlə bağlı məsələlər üstünlük təşkil edib.

Qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, istirahət düşərgələrinin təşkili, gənclər mərkəzlərinin müvafiq avadanlıqlarla təmin edilməsi və fəaliyyəti gənclər istiqamətini əhatə edib.

Fəxri adların verilməsi, idman mərkəzlərinin idman avadanlıqları ilə təmin olunması, Olimpiya İdman Komplekslərinin, idman qurğularının tikintisi və təmiri, Uşaq Gənclər və İdman Mərkəzlərinin (UGİM) və bölmələrin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı idman sahəsi ilə bağlı edilən müraciətlər sırasında olub.

Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyatı qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

**Nazirliyin mətbuat xidməti.**

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2017-ci İLİN SENTYABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Kiçik Əmili kəndi | 05.09.2017 | Kənd məktəbi, saat $11^{00}$ |
| Uludaş kəndi | 12.09.2017 | Kənd məktəbi, saat $11^{00}$ |
| Aydınqışlaq kəndi | 19.09.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Yenikənd kəndi | 26.09.2017 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Qəbələdə qida təhlükəsizliyinə böyük önəm verilir

## Turizm bölgəsində bunun xüsusi əhəmiyyəti var

Daha çox turizm bölgəsi kimi tanınan Qəbələdə kənd təsərrüfatı da sürətlə inkişaf edir. Göz işlədikcə uzanıb gedən taxıl zəmiləri, müxtəlif meyvələrin yetişdirildiyi bağlar da bu diyarın təbii sərvətidir. Qəbələdə heyvandarlığa da maraq çoxdur. Son illər yaradılan müasir heyvandarlıq kompleksləri indi bu sahəni daha gəlirli edib.

Qəbələ Rayon Baytarlıq İdarəsinin rəisi Bəhmən Abdurəhmanov məlumat verdi ki, Qəbələdə 2 müasir heyvandarlıq kompleksi və 2 kiçik həcmli heyvandarlıq təsərrüfatı fəaliyyətə başladıqdan sonra rayon əhalisinin ətə və südə olan tələbatının yerli istehsal hesabına ödənilməsi sahəsində müsbət dəyişikliklər baş verib. Hazırda rayon ərazisində 47 min baş qaramal və 190 min başdan çox davar var. İdarə rəisinin sözlərinə görə, bu günə kimi 13,4 min baş qaramaldan bruselyoza qarşı qan nümunəsi götürülüb. Onların arasından 8 baş heyvanda xəstəlik aşkarlanıb və onlar təsərrüfatdan kənarlaşdırılıb. Qarayaraya qarşı 43,7 min baş qaramal, 190 min başa yaxın davarda isə peyvəndləmə aparılıb. Hazırda rayonda heç bir infeksiya qeydə alınmayıb. Baytar həkimləri bütün ərazilərdə vəziyyətə nəzarət edirlər.



Qəbələnin coğrafi ərazisi və iqlim şəraiti baxımından burada dabaq hər an gözlənilən xəstəlikdir. Lakin görülən profilaktiki tədbirlər nəticəsində son 5 ildə rayonda dabaq, eləcə də digər xəstəliklər müşahidə olunmayıb. Lakin Qəbələnin yaşayış məntəqələri vəhşi heyvanlarla zəngin meşə massivləri və dağlarla əhatə olunduğundan ərazidə quduzluq xəstəliyi hər an gözlənilir. Ona görə də quduzluğa qarşı peyvəndləmə aparılır. Tək-tək hallarda xəstəlik aşkarlansa da, dərhal qarşısı alınır.

Rayonun Qəmərvan kəndinin Dağıstan Muxtar Respublikası ilə 18 kilometr sərhədi var. Oradakı sərhəd zastavasının xidmətçiləri və həkimlər bütün hərəkətlərə nəzarət etdikləri üçün kənardan Qəbələyə hansısa heyvanın keçməsinin qarşısı vaxtında alınır.

63 kənddə 21 sahə baytar məntəqəsi olduğunu deyən B.Abdurəhmanov bütün sahə baytar məntəqələrinin həkim və feldşerlərlə təmin olunduğunu bildirdi: “Lakin son zamanlar baytarlıq sahəsi üzrə ixtisas almaq üçün müraciət edənlər demək olar ki, yox səviyyəsindədir. Ona görə də yaxın gələcəkdə baytar kadrları sarıdan sıxıntı yaşanması ehtimalı çox böyükdür”.

Qəbələnin turizm mərkəzinə, beynəlxalq festivallar şəhərinə çevrilməsi burada qida təhlükəsizliyini də ön plana çıxarıb. İdarə rəisi dedi ki, bu sahədə narahatlığa əsas yoxdur: “Səbəb kənardan Qəbələyə ətin daxil olmamasıdır. Yalnız peşəkar qəssablarımız tərəfindən kəsilən heyvanlar satış məntəqələrinə çıxarılır. Ətlərin hamısı həkim nəzarətindən keçirilir. Küçə ticarəti bizdə yoxdur. Rayonun mərkəzi bazarında isə baytarlıq sanitar ekspertiza laboratoriyası fəaliyyət göstərir. Bir sözlə, nəzarətsiz ət satışa buraxılmır. Hotellərin və istirahət mərkəzlərinin ət təminatı isə rayondakı iri heyvandarlıq kompleksi tərəfindən ödənilir. Oradakı müasir standartlara cavab verən ət kəsimi məntəqəsində heyvanlar həkim yoxlanışından sonra ünvanlara göndərilir”.

Bəs, həmin heyvandarlıq təsərrüfatlarına baytar nəzarəti necə aparılır? B.Abdurəhmanov bildirdi ki, Qəbələdəki 2 iri heyvandarlıq kompleksinin hər birində 2 min başa yaxın qaramal var və heyvanlara özlərinin baytar həkimləri baxır: “Zərurət yarandıqda biz də profilaktiki tövsiyələr veririk. 106 baş qaramalın saxlandığı digər təsərrüfata nəzarəti isə oradakı baytar sahə məntəqəsi həyata keçirir”.

İdarə rəisi söylədi ki, yay üçün ən qorxulu xəstəlik qızdırmadır: “Bu xəstəliyə heyvanlar gənələr vasitəsilə yoluxurlar. Onun üçün də heyvandarlar arasında daim maarifləndirmə işi aparırıq”.

Rayonda mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün süni mayalama üzrə 9 mütəxəssis fəaliyyət göstərir. Keçən 6 ay ərzində onlar tərəfindən 3874 baş inək və düyələrdə süni mayalama aparılıb və süni mayalanmış heyvanlardan 1448 baş yüksək genetik potensiala malik buzovlar alınıb. Məlum olduğu kimi, 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova görə subsidiya verilir. Cari ilin 6 ayında 918 baş süni mayalanmadan alınmış buzovlara subsidiya hesablanıb. Bu iş mütəmadi olaraq hər ay davam etdirilir. Ona görə də maldarlar süni mayalamaya üstünlük verirlər.

**✍ Əli SƏLİMOV,**

*“Azərbaycan”*

19 avqust 2017-ci il.